# Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli dövlət siyasətinin əsas prioritetlərindəndir

## *Prezident İlham Əliyevin ətrafında sıx birləşən qaçqın və məcburi köçkünlər yurd həsrətinə son qoyulacaq günün uzaqda olmadığına qəti əmindirlər*



**Bu gün Azərbaycan Respublikası müstəqillik yolunda inamla addımlayır. Müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin günü-gündən inkişaf etməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Məhz onun xalqın təkidli tələbi ilə hakimiyyətə gəlişi Azərbaycanı dağılmaq təhlükəsindən xilas etdi. Ümummilli liderin ən böyük xidmətlərindən biri Azərbaycanda qanlı müharibənin dayandırılması, 1994-cü ildə atəşkəs sazişinin bağlanması oldu və ölkədə quruculuq işlərinə başlanılması üçün imkanlar yarandı. Elə həmin il dünyanın iri neft şirkətlərinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. Bakı-Tbilisi-Ceyhan kəmərinin çəkilişi ölkəmizin ilk iqtisadi nailiyyəti oldu. Azərbaycan dünyada tanınmağa başladı. Çox uğurlu xarici siyasət nəticəsində Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların üzvünə çevrildi. Aparılan davamlı islahatlar respublikamızda iqtisadi sabitliyin yaradılmasına imkan verdi, sosial sahələrdə islahatlara başlanıldı.**

Ancaq torpaqlarımızın 20 faizinin işğalı, bir milyondan çox qaçqın və məcburi köçkünün problemləri hələ də öz həllini gözləyirdi. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk vaxtlardan bu problemlərlə ciddi məşğul olmağa başladı. Beynəlxalq aləmdə Ermənistanın təcavüzkar dövlət kimi tanıdılması, işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi ilə bağlı BMT qətnamələrinə əməl olunması, qaçqınların sosial problemlərinin həlli və s. istiqamətlərdə ardıcıl və məqsədyönlü siyasət həyata keçirən ümummilli lider bunu ölkənin bir nömrəli problemi adlandırır və özünün əsas vəzifəsi sayırdı.

O da həqiqətdir ki, işğal faktı nəticəsində qaçqın və məcburi köçkünə çevrilən insanların üzləşdiyi sosial və digər problemlərin həlli istiqamətində atılan ilk addımlar bilavasitə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin xalqın tələbi ilə hakimiyyətə qayıtmasından sonra doğma yurdlarından didərgin salınmış bir milyon nəfərədək soydaşımız dövlət qayğısı ilə əhatə olundu, onların üzləşdiyi sosial problemlər tədricən öz həllini tapmağa başladı. Bu insanların səsi dünya ictimaiyyətinə çatdırıldı. Ulu öndər müxtəlif ölkələrin dövlət başçıları, rəsmi şəxsləri ilə keçirilən çoxsaylı görüşlərində, beynəlxalq və yerli qurumlarda etdiyi çıxışlarında mütləq qaçqın və məcburi köçkünlərin problemlərini qaldırırdı.

Qaçqın və məcburi köçkünlərin sosial problemləri Heydər Əliyevi daim narahat edirdi. Ulu öndər dəfələrlə çadır şəhərciklərinə gedərək, qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti ilə tanış olmuşdu. Onun bu şəhərciklərə hər gəlişi insanlarda gələcəyə ümid oyadırdı. Heydər Əliyevin hakimiyyəti illərində qaçqın və məcburi köçkünlər beynəlxalq humanitar yardımla təmin edilir, onların məişət şəraitinin yaxşılaşdırılması üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilirdi. Çıxışlarının birində ulu öndər demişdir: **"Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir".** Göründüyü kimi, bu dahi şəxsiyyət insanların ağrılarını dərindən duyur, onların xilası yollarını axtarırdı. Heydər Əliyev işğal altında olan torpaqların azad edilməsi üçün bütün imkanlardan istifadə edirdi. Ümummilli lider Heydər Əliyev qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həllini dövlət siyasətinin əsas prioriteti elan etdi. Ötən dövrdən indiyə qədər dövlətin bu istiqamətdə gördüyü işlər bunu təsdiqləyir.

Azərbaycanlı qaçqın və məcburi köçkünlər ölkənin, demək olar ki, əksər bölgələrində məskunlaşmışlar. Bu cür məskunlaşma onların problemlərinin həllinə də mane olurdu. Ancaq bu gün məcburi köçkünlərin bütün sosial qayğıları həllini tapmaqdadır.

Ulu öndərin siyasi kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hakimiyyətdə olduğu illərdə bu problemə xüsusi önəm vermiş, bir neçə Dövlət Proqramı imzalamışdır. Dövlətin sosial siyasətinin başlıca məqsədi qayğıya ehtiyacı olan vətəndaşların problemlərini vaxtında həll etməkdir. Ölkəmizdə bu kateqoriyaya aid olan ən həssas təbəqə qaçqın və məcburi köçkünlərdir. Ulu öndər Heydər Əliyev 1998-ci ildə "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı"nı təsdiq etdi. Proqramın icrası qaçqınların və məcburi köçkünlərin təhsil, səhiyyə, məşğulluq, mənzil-məişət şəraiti, müavinət və digər problemlərinin həllinin yaxşılaşdırılmasında, sosial müdafiəsinin yüksək səviyyədə təmin edilməsində, eləcə də bu sahənin idarə olunmasında müstəsna rol oynadı.

Prezident İlham Əliyev ümummilli liderin həyata keçirdiyi bu siyasəti uğurla davam etdirdi. Hələ 2003-cü il oktyabrın 1-də prezident seçkiləri ərəfəsində ilk görüşünü Biləsuvar rayonu ərazisində məcburi köçkünlər üçün salınmış yeni qəsəbələrdə keçirən cənab İlham Əliyev "ölkədə bir dənə də çadır düşərgəsi qalmayacaq", - deyə bəyan etmişdi. Ölkə başçısının bu vədi vaxtından bir il əvvəl yerinə yetirildi və çox acınacaqlı şəraitdə yaşayan məcburi köçkünlərin çadır həyatına son qoyuldu, onlar müasir standartlara uyğun, tam infrastruktura malik 106 yeni qəsəbəyə köçürüldü. Qeyd edək ki, ötən ilədək 300 mindən çox məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılıb.

Azərbaycanın sürətli sosial-iqtisadi inkişafının əsas xüsusiyyətlərindən biri yaşanan tərəqqinin hər bir vətəndaşın həyatında öz əksini tapması, insanların rifah halının günü-gündən yaxşılaşmasıdır. Əhalinin maddi rifahının yüksəlməsi, əməkhaqqı və pensiyaların, eləcə də büdcədən maliyyələşən insanlara ödənilən vəsaitlərin Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən vaxtaşırı artırılması və bu qəbildən olan digər tədbirlər ölkədə sosial sahədə vəziyyətin daha da yaxşılaşmasını xarakterizə edən mühüm parametrlərdəndir. Əldə edilən bu uğurlar Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti üzündən öz doğma yurd-yuvalarını tərk edərək qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olan insanların yaşayış durumuna və sosial vəziyyətinə də təsirsiz ötüşmür. MDB, eləcə də Avropa məkanında qaçqın və məcburi köçkünlərin sayına görə Azərbaycan ilk yerlərdə gələn dövlətlərdən biri olmasına baxmayaraq, bu kateqoriyadan olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması baxımından ən fəal siyasət yürüdən və yüksək nəticələr əldə edən ölkələrdən hesab olunur. Qaçqın və məcburi köçkünlərin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılması dövlətin həyata keçirdiyi siyasətin əsas prioritetlərindən birini təşkil edir və göstərilən istiqamətdə uğurlu nəticələrin əldə olunduğu beynəlxalq miqyasda da açıq etiraf edilir.



Məcburi köçkünlər üçün inşa edilən qəsəbələrin açılışında Prezident İlham Əliyevin şəxsən iştirakı, yaradılan şəraitlə yerində tanışlığı, məcburi köçkünlərin evində qonaq olması, onların qayğılarını bilavasitə özlərindən dinləməsi Azərbaycan Prezidentinin bu insanlara nə dərəcədə yüksək diqqət göstərdiyinin daha bir real sübutudur.

Qaçqınların və məcburi köçkünlərin sağlamlıqlarının qorunması, onların rifah halının yaxşılaşdırılması, məşğulluqlarının artırılması və digər məsələlərlə bağlı da bir sıra mühüm işlər görülüb. Bu işlərə Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr də töhfə verir. Ümumiyyətlə, Azərbaycan dövlətinin qaçqınların və məcburi köçkünlərin sosial məsələlərinin həlli istiqamətində gördüyü tədbirlər dünyada çox nadir təcrübədir. Bu təcrübə bütün beynəlxalq təşkilatlar tərəfindən çox yüksək qiymətləndirilir və ondan istifadə olunur.

Azərbaycan ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə çox böyük nailiyyətlər qazanıb. Ölkəmizin maliyyə imkanlarının güclənməsi istər regionların sosial-iqtisadi inkişafı, istərsə də insanların rifah halının daha da yaxşılaşdırılması istiqamətində layihələrin reallaşdırılmasına da imkan verib. Cənab Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır.

Dövlətimizin başçısının müəyyənləşdirdiyi bu strateji kursa uyğun olaraq respublikamızda qayğıya ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənirlər. Bu mənada da qaçqın və məcburi köçkünlər, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələri ön sırada dayanırlar. Son 16 ildə ölkəmizdə Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq qaçqın və məcburi köçkünlərin problemlərinin həlli məqsədilə müxtəlif proqramlar reallaşdırılıb.

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ilin oktyabrın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul edən zaman demişdir: "Hesab edirəm ki, köçkünlərin problemlərinin həlli ümumxalq məsələsi olmalıdır. Düzdür, əsas yükü dövlət öz üzərinə götürübdür. Bu günə qədər yüzdən çox şəhərciyin tikintisi dövlət hesabına təmin edilmişdir. Ümumiyyətlə, köçkünlərin problemlərinin həlli, müavinətlərin verilməsi, evlərin tikilməsi üçün 7 milyard manatdan çox vəsait xərclənib. Bu il məcburi köçkünlərin müavinətləri 50 faiz artırıldı. Bu, bir daha onu göstərir ki, dövlət bu kateqoriyadan olan insanlara daim öz yardımını edir. İlin sonuna qədər yeni şəhərciklərin açılışı nəzərdə tutulur. İlin əvvəlində nəzərdə tutduğumuz bütün işlər ilin sonuna qədər öz həllini tapmalıdır".**

Qeyd edək ki, 2003-cü ildən 2019-cu ilin 6 aprel tarixinədək Azərbaycan Respublikasının Prezidenti tərəfindən qaçqınlara və məcburi köçkünlərə dövlət qayğısı ilə bağlı 73 fərman və sərəncam imzalanmış, Nazirlər Kabineti tərəfindən 221 qərar və sərəncam verilmiş, Milli Məclis tərəfindən isə 11 qanun qəbul edilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2003-2019-cu illərdə yeni salınmış qəsəbələrdə məcburi köçkünlərlə 40 dəfə, o cümlədən 2018-ci ildə 2 dəfə və 2019-cu ildə 3 dəfə görüş keçirmişdir.

2018-ci ilin sonunadək 58.223 ailənin və ya 300 minə yaxın qaçqın və məcburi köçkünün mənzil şəraiti yaxşılaşdırılmışdır ki, ondan da 54.223 ailə, yaxud 272 min nəfər - 93 faiz son 15 ilin payına düşür. 2018-ci ildə 5.903 məcburi köçkün ailəsi yeni mənzillərlə təmin edilmişdir. Sahə ilə bağlı 2004-cü ildə qəbul edilmiş Dövlət Proqramına 2 əlavə edilərək təsdiq olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi olaraq, Azərbaycan 26 aprel 2012-ci ildə daha bir nüfuzlu beynəlxalq təşkilata - BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə tamhüquqlu üzv seçilmişdir. 12 çadır düşərgəsinin və dəmir yolu üzərindəki yük vaqonlarından ibarət qəsəbələrin ləğvi 2007-ci ildə, fin tipli 16 qəsəbənin ləğvi 2016-cı ildə tam başa çatdırılmış və acınacaqlı şəraitdə yaşayan məcburi köçkün ailələrin yeni salınmış qəsəbələrə köçürülməsi təmin edilmişdir.




2001-ci ildən 2019-cu ilin 1 dekabr tarixinədək qaçqın və məcburi köçkünlər üçün respublikanın 30 şəhər və rayonunda Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına, bütün sosial-texniki infrastruktura malik 106 müasir qəsəbə və çoxmərtəbəli binalardan ibarət yaşayış kompleksi salınmışdır.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün 1993-2018-ci illər ərzində ümumilikdə 7,1 milyard manat vəsait sərf edilmişdir.

Bundan 3,4 milyard manat dövlət büdcəsinin, 2,3 milyard manat Dövlət Neft Fondunun, 1,4 milyard manat isə beynəlxalq maliyyə qurumları və ölkəmizdə fəaliyyət göstərən beynəlxalq humanitar təşkilatların vəsaitidir. Bu vəsaitin də 85 faizi, yaxud 6,1 milyard manatı son 15 ildə istifadə olunmuşdur.

2019-cu ilin əvvəlinə olan göstəricilərə əsasən əmək qabiliyyətli məcburi köçkünlər 366,9 min nəfər təşkil edir ki, bunlardan 198 min nəfəri büdcə təşkilatlarında və digər sahələrdə daimi işlə, 134 min nəfəri isə mövsümi işlə təmin edilmişdir. Əmək qabiliyyətli işsiz məcburi köçkünlər 34,9 min nəfər təşkil edir.

2018-ci ildə bir nəfər məcburi köçkünə xərclənən vəsaitin həcmi 937 manat təşkil etmişdir. Bu kateqoriyadan olan insanlara ayrılan vəsaitin həcminə görə Azərbaycan dünya dövlətləri arasında ilk yerlərdə qərarlaşır.

1993-cü ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının rəsmi məlumatına əsasən bütün dünyada 25 milyondan artıq insan qaçqın kimi qeydiyyatda olduğu halda tək Azərbaycanda 1 milyondan artıq - yəni ümumi sayın 4 faizi qədər qaçqın və məcburi köçkün mövcud olmuşdur. Hazırda dünya əhalisinin 68,5 milyon nəfəri qaçqın və didərgin həyatı yaşamaq məcburiyyətindədir və statistik göstəricilərə əsasən Azərbaycan Respublikası qaçqın və məcburi köçkünlərə ən yüksək qayğı göstərən dövlət kimi bütün dünya dövlətlərinə bir nümunədir.

Mövcud problemin miqyasına baxmayaraq, görülən işlərin nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi son 15 ildə 75 faizdən 12 faizədək azaldılmışdır.

2019-cu ilin birinci rübündə vahid aylıq müavinət alan məcburi köçkünlərin orta aylıq sayı 494.508 nəfər təşkil etmişdir ki, bunlardan 423.444 nəfəri 60 manat, 71.064 nəfəri isə 33 manat məbləğində müavinət alanlardan ibarət olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 26 fevral tarixli Sərəncamına əsasən 2019-cu ilin 1 aprel tarixindən məcburi köçkünlərə ödənilən vahid aylıq müavinətin məbləği daha 50 faiz artırılaraq, müvafiq olaraq 60 və 33 manat həddinə çatdırılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizdə olan qaçqın və məcburi köçkünlərə göstərilən diqqət və qayğı Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən də uğurla dəstəklənir. Mehriban xanım Əliyevanın təşəbbüsü və çağırışı ilə özəl sektor da bu işə qoşulub və artıq onlar tərəfindən bir neçə yaşayış kompleksi tikilərək məcburi köçkünlərin istifadəsinə verilib.

Məcburi köçkünlər üçün yaradılmış əsas imtiyazlardan biri də Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 4 avqust tarixli və 2011-ci il 14 sentyabr tarixli sərəncamları ilə ali və orta ixtisas təhsili müəssisələrində ödənişli bölmələrdə təhsil alan məcburi köçkünlərin təhsil haqqı ödəməkdən azad edilməsi olmuşdur. 2019-cu ilin əvvəlinə olan məlumatlara əsasən Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən ali və orta texniki - peşə təhsili ocaqlarının ödənişli təhsil bölməsində təhsil haqqı dövlət tərəfindən ödənilən 12.426 nəfər məcburi köçkün tələbə oxuyur.

Dövlət Komitəsi tərəfindən məcburi köçkünlər üçün humanitar tədbirlər keçirilir. Bakı, Şəki, Naftalan, Ağdam, Gəncə, Bərdə, Mingəçevir və digər yerlərdə keçirilmiş tibbi aksiyalar zamanı 4610 məcburi köçkün yüksəkixtisaslı həkimlər tərəfindən müayinə olunub. Bundan başqa, məcburi köçkünlər Dövlət Komitəsi və Müdafiə Nazirliyi, eləcə də Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə ilk tibbi yardım təlimlərinə cəlb olunub. Baza Sənaye Kombinatında çalışan məcburi köçkünlər tərəfindən istehsal olunmuş məktəbli geyimləri (qış və yaz fəslinə uyğun) və yataq dəstləri məcburi köçkünlərə paylanılır. 2018-ci il ərzində istehsal edilmiş məktəbli formaları, isti üst geyimləri və yataq dəstlərinin cari ilin fevral ayında Ağdam, Xocalı, Xocavənd, Füzuli, Cəbrayıl, Laçın, Kəlbəcər rayonlarından olan məcburi köçkün ailələrinə çatdırılması üçün onların müvəqqəti məskunlaşdığı rayonların icra hakimiyyətlərinə göndərilmişdir. Cari ilin sonunadək əlavə olaraq, Şirvan şəhərində, Göyçay, Kürdəmir, Ucar, Göygöl rayonlarında, Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsində yaşayış massivlərinin salınması və Füzuli rayonu ərazisində fərdi yaşayış evlərindən ibarət qəsəbənin inşa edilib, istifadəyə verilməsi nəzərdə tutulub.

Azərbaycanda məcburi köçkünlərə göstərilən diqqət və qayğının dünyada analoqu yoxdur. Özü də bu, heç bir beynəlxalq konvensiyaya, ya da öhdəliyə əsaslanmır, sadəcə, Prezident İlham Əliyevin siyasi iradəsinin ifadəsi, dövlətimizin siyasi prioriteti, sosial-iqtisadi potensialının göstəricisidir.

Ölkədə həyata keçirilən sosial-iqtisadi inkişaf proqramlarının uğurlu icrasını hər bir vətəndaş öz həyatında hiss edir. Bu baxımdan qaçqın və məcburi köçkünlərə göstərilən xüsusi qayğı da böyük əhəmiyyət daşıyır. Ulu öndər Heydər Əliyev bu qəbildən olan insanlara daim diqqət və qayğı ilə yanaşıb, onların sosial müdafiəsi və mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində xeyli iş görüb. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva da fəaliyyətlərində qaçqın və məcburi köçkünlərə diqqət və qayğını davam etdirirlər.

Bu dövlət siyasəti təbii olaraq daha on minlərlə məcburi köçkünün mənzil-məişət şəraitini yaxşılaşdıracaq, onların sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsinə imkan verəcəkdir. Prezident İlham Əliyevin strategiyasını hər zaman dəstəkləyən və onun ətrafında sıx birləşən qaçqın və məcburi köçkünlər yurd həsrətinə son qoyulacaq günün uzaqda olmadığına qəti əmindirlər. Çünki dövlətin, onun rəhbərinin bu istiqamətdə atdığı addımları, həyata keçirilən məqsədyönlü siyasətin uğurlu nəticələrini aydın görürlər.

**Mahir ABBASZADƏ,**
**V çağırış Milli Məclisin deputatı.**